# Moldova və Özbəkistan portalları Azərbaycan Prezidentinin Ermənistanın mənfur siyasəti ilə bağlı fikirlərini dərc edib

Moldovanın “Timpul.md” xəbər portalı Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və “Real” Televiziyasına müsahibəsində Ermənistanın təcavüzkar siyasətini ifşa edən açıqlamalarına geniş yer ayırıb.

Portal dövlət başçısının səsləndirdiyi bu fikirlərə diqqət çəkir: “Ermənistan yeni müharibəyə hazırlaşır. Təmas xəttinə yaxın onların qüvvələrinin konsentrasiyası baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Baş nazir Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həllini uzatmaq üçün təxribatlara əl atır. Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu, bütün beynəlxalq konvensiyalara ziddir”.

Materialda Azərbaycan Prezidentinin danışıqlar prosesini bilərəkdən pozan Ermənistan rəhbərliyinə qarşı digər sərt fikirləri də yer alıb.

***

Özbəkistanın “Kun.uz” və “Interpress.uz” portalları Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindən bəzi fikirlərini dərc edib.

Portallar xüsusilə də dövlət başçısının Ermənistanın mənfur siyasəti, törətdiyi son təxribatlar, təcavüzkar ölkənin müharibəyə hazırlaşması, işğal etdiyi torpaqlarda bütün beynəlxalq konvensiyalara zidd olaraq apardığı qeyri-qanuni məskunlaşdırma siyasəti ilə bağlı fikirlərini təqdim edib.

***AZƏRTAC***

Azərbaycan.- 2020.-23 sentyabr.- S.3.